# “A+CO” Açıq Səhmdar Cəmiyyətinin 2023-ci il üzrə illik idarəetmə hesabatı

İllik hesabat Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən 03 fevral 2016-cı ildə təsdiq edilmiş “Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında Qaydalar” a uyğun olaraq hazırlanmışdır.

"A+CO" ASC-nin illik idarəetmə hesabatına daxil olan məlumatlar aşağıda göstərilir:

1. **Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi:**

1.1.Tam adı: "A+CO" Açıq Səhmdar Cəmiyyəti
1.2.Qısaldılmış adı: "A+CO" ASC
1.3.VÖEN-i: 1900056271
1.4.Dövlət qeydiyyatının tarixi və nömrəsi: 22 dekbar 1997-ci il, 1900056271

2. **Emitentin hüquqi ünvanı və olduğu yer:**

AZ0102, Abşeron rayonu Xırdalan şəhəri Həsən Əliyev küçəsi ev 121

3. **Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları:**

Hesabat dövrü ərzində emitentin adında,birləşməsi və ya çevrilməsi və yenidən təşkil formasında heç bir dəyişiklik olmamışdır.

**Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar:**

Hesabat dövrü ərzində emitent tərəfindən heç bir filial və nümayəndəliklər yaradılmamış və ləğv edilməmişdir.

4. **Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti:**

Hesabat dövrü ərzində emitentin heç bir yaranmış və ləğv edilmiş törəmə cəmiyyəti olmamışdır.

5. **Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:**

Emitent heç bir şirkətlər qrupunun hissəsi deyil.

6. **Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri:**

6.1. Distillə edilmiş və təmizlənmiş spirtli içkilərin istehsalı
6.2. Digər alkoqolsuz içkilərin istehsalı

**7. Emitentin lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri:**

| № | Fəaliyyət növü | Lisenziyalar (qüvvədə olma müddəti) | Xüsusi icazələr (qüvvədə olma müddəti) |
|---|---|---|---|
| 1. | Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin Dövlət Reyestrindən Çıxarış | Müddətsiz | |

**8. Emitentin təklif etdiyi məhsullar və xidmətlər:**

Spirtli və spirtsiz içkilərin istehsalı, topdan və pərakəndə satışı

**9. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası:**

| **№** | | **2023-cü ilin birinci rübü** | **2023-cü ilin ikinci rübü** | **2023-cü ilin üçüncü rübü** | **2023-cü ilin dördüncü rübü** |
|---|---|---|---|---|---|
| **1.** | **İşçilərin sayı** | **785** | **809** | **788** | **610** |
| **2.** | **İşə qəbul** | **189** | **176** | **171** | **85** |
| **3.** | **İşdən azad olma** | **136** | **152** | **192** | **263** |

**10. Emitentin idarəetmə orqanları haqqında məlumat: Direktorlar şurası (müşahidə şurası) ) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı:**

| **№** | **Səhmdarların ümumi yığıncağı** | **Direktorlar Şurası** | **Direktor** |
|---|---|---|---|
| 1 | Nəbiyev Elburus Ənvər oğlu | | Qasımov Xanoğlan Məsim oğlu |
| 2 | | | |
| 3 | | | |
| 4 | | | |
| 5 | | | |

**11. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı:**
1 (bir) fiziki şəxs

**12. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı,**

**hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı:**

| № | Səhmdar ( fiziki şəxsin soyadı, adı, atasının adı) | Səhmlərin miqdarı | Nizamnamə kapitalında payı |
|---|---|---|---|
| 1. | Nəbiyev Elburus Ənvər oğlu | 200 000 | 100% |

**13. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı):**

Emitentin nizamnamə kapitalında payı beş faizdən az olmayan hüquqi şəxs yoxdur.

**14. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:**

Hesabat dövründə səhmdarların yığıncağı keçirilməmişdir.

**15. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):**

| İnvestisiya qiymətli kağızının növü və forması | İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi | İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri | İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri | Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat | Faizli istiqrazlar buraxılışı haqqında məlumatda- istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi | İnvestisiya qiymətli kağızlarının yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer |
|---|---|---|---|---|---|---|
| Adi adlı sənədsiz səs hüququ verən səhm | | 200 000 ədəd 1 (bir) manat | 200 000 (iki yüz min) manat | 11.728.000,00 (on bir milyon yeddi yüz iyirmi səkkiz)manat məbləğində dividend ödənilib | İstiqrazlar buraxılmayıb | Yoxdur |

**16. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:**

Hesabat dövrü ərzində xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

**17. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:**

Hesabat dövrü ərzində aidiyyətli şəxslərlə əqdlər bağlanmamışdır.

**18. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi:**

31 dekabr 2023-cü il

19. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat:

"A+CO" ASC-nin rəsmi internet səhifəsi: www.xirdalanserab.az

Direktor Qasımov Xanoğlan

A+CO ASC

Baş mühasib İsayev Mahir

Hesabatın hazırlanma tarixi: 31 dekabr 2023-cü il

TIMP

Audit and Consulting

TIME IS VALUABLE

"A+CO" ASC - 2023

TIMP

"A+CO" ASC

31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə
Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına
Uyğun Maliyyə Hesabatları və
Müstəqil Auditorun Hesabatı

**MÜNDƏRİCAT**

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

MÜSTƏQİL AUDİTORUN HESABATI

MALİYYƏ HESABATLARI:

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ........ 4

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT ........ 5

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ........ 6

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ........ 7

MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR ........ 8-37

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA BƏYANAT 31 DEKABR 2023-Cİ İL TARIXINDƏ BİTƏN İL ÜZRƏ**

Göstərilən bəyanət, "A+CO" ASC-nin (bundan sonra "ASC") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik , 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- MHBS-nın tələblərinə riayət edilməsi və kənarlaşmalar tapıldığı zaman onların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti;
- Əgər ASC normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- ASC daxilində səmərəli vəkeyfiyyətli daxili nəzarət sisteminin hazırlanması, təşkili;
- ASC maliyyə hesabatlarının MHBS-yə uyğun hazırlanması və ASC-nin maliyyə vəziyyəti istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sistminin qanunvericilik və Azərbaycan Respublikasında mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək ASC-nin aktivlərinin qorunmasının təmin edilməsi və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması

31 dekabr 2023-cü il tarixinə başa çatmış il üzrə maliyyə hesabatları ASC-nin rəhbərliyi tərəfindən 06 dekabr 2024-cü il tarixində təsdiq edilmişdir.

Rəhbərlik adından:

Qasımov Xanoğlan
Direktor

İsayev Mahir
Baş Mühasib

TIMP

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

"A+CO" ASC-nin Səhmdarlarına:

### Rəy

Biz "A+CO" ASC (bundan sonra "ASC") 31 dekabr 2023-cü il tarixinə təqdim edilən və həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliyi və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın, eləcə də əsas mühasibat prinsipini və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Rəyimizcə, maliyyə hesabatları ASCnin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmçinin həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlər ədalətli əks etdirir.

### Şərti müsbət rəy üçün əsas

ASC-nin auditoru kimi təyin edildiyimiz tarix 22.07.2024-cü ildir və 31 dekabr 2023-cü il tarixinə 19.995.008 AZN qalığındakı mal-materialların fiziki inventarizasiyasını müşahidə edə bilmədik. Mal-material qalıqları maliyyə nəticələri və pul vəsaitlərinin hərəkərinin müəyyən edilmiş prosesinin bir hissəsi olduğu üçün və digər iki hesabat üzrə düzəlişlərin zəruri olub olmadığını müəyyən edə bilmədik. Həmçinin A+CO ASC-nin daxili audit rəyi olmadığından daxili maliyyə hesabatlarının düzgünlüyünün yoxlanılması tərəfimizdən aparıla bilməmişdir.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə lazım olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsi"-nin (MBESŞ Məcəlləsi) tələblərinə uyğun olaraq ASC-dən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik.

### Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, ASC-ni ləğv etmək və ya işini dayandırmaq istəyi olmadığı yaxud bundan başqa digər real alternativi olmadığı hallar istisna olmaqla, ASC öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

İqtisadi subyekti idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

TIMP

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bütövlüklə, saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya məcmu halda maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir etmə ehtimalı olsun.

Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparıldığı zaman peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi nümayiş etdiririk. Biz həmçinin:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkarlanmaması riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq, gizli sövdələşmə, saxtakarlıq, dələduzluq, məlumatların bilərəkdən göstərilməməsi, həqiqətə uyğun olmayan şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Şirkətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün vacib olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.
- İstifadə edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların məqsədəuyğunluğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair qənaətə bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

06 dekabr 2024-cü il
Bakı, Azərbaycan Respublikası

„Timp" MMC

AZƏRBAYCAN RESPUBLİKASI
Məhdud Məsuliyyətli Cəmiyyəti
«TİMP»
Limited Liability Company
AZERBAIJAN REPUBLIC

| | Qeydlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq tikili və avadanlıqlar | 7 | 28.904.775 | 26.980.325 |
| Gelecek hesabat dövrünün vergi aktivləri | 26 | 7.831 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **28.912.606** | **26.980.325** |
| **Cari aktivlər** | | | |
| Mallar | 8 | 19.995.008 | 21.150.831 |
| Hazır məhsul | 9 | 1.948.720 | 3.115.988 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 509.454 | 885.589 |
| Verilmiş avanslar | 11 | 10.473.618 | 12.368.600 |
| Debitor borcları | 12 | 20.183.244 | 14.399.039 |
| Digər aktivlər | 13 | 667.881 | 624.155 |
| **Cəmi cari aktivlər** | | **53.777.925** | **52.544.202** |
| **CƏMİ AKTİVLƏR** | | **82.690.531** | **79.524.527** |
| **Öhdəliklər** | | | |
| **Cari öhdəliklər** | | | |
| Kreditor borclar | 16 | 12.529.830 | 7.615.501 |
| Alınmış avanslar | 17 | 1.227.368 | 1.254.493 |
| Gələcək dövrün gəlirləri | | - | - |
| Vergi öhdəlikləri | 18 | 2.110.736 | 171.874 |
| Digər öhdəliklər | 19 | 6.869.950 | 6.107.932 |
| **Cəmi cari öhdəliklər** | | **22.737.884** | **15.149.800** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli bank kreditləri | 20 | 16.688.020 | 12.504.208 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **16.688.020** | **12.504.208** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **39.425.904** | **27.654.008** |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 14 | 200.000 | 10.000 |
| Digər kapital | 15 | 43.350.157 | 42.306.986 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (285.530) | 9.553.533 |
| **CƏMİ KAPİTAL** | | **43.264.627** | **51.870.519** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **82.690.531** | **79.524.527** |

06 dekabr 2024-cü il tarixində ASC rəhbərliyi adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Qasımov Xanoğlan
Direktor

İsayev Mahir
Baş Mühasib

*(məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il | 31 dekabr 2022-ci il tarixində bitən il |
|---|---|---|---|
| Gəlirlər | 21 | 54.447.782 | 31.747.461 |
| Maya dəyəri xərcləri | 23 | (43.695.036) | - |
| **Ümumi gəlir** | | **10.752.746** | **31.747.461** |
| Sair əməliyyat gəlirləri | 22 | 916.470 | - |
| Sair əməliyyat xərcləri | 24 | (607.179) | - |
| Debitor borcları üzrə gözlənilən itki | 12 | (2.242.582) | - |
| Ümumi gəlirdən çıxılmayan xərclər | | - | 103.618 |
| Maya dəyəri xərcləri | 23 | - | (17.581.369) |
| İnzibati və ümumi xərclər | 25 | (6.781.409) | (11.509.708) |
| Məzənnə fərqindən zərər | | - | (487.520) |
| **Mənfəət** | | **2.038.046** | **2.272.482** |
| Azadolma və güzəştlər (KTN-subsidiya) | 26 | (468.646) | - |
| Azadolma və güzəştlər (İnvestisiya təşviqi) | 26 | (784.700) | (1.136.241) |
| **Vergidən əvvəlki mənfəət** | | **784.700** | **1.136.241** |
| Mənfəət vergi xərci | 26 | (149.109) | (227.248) |
| **Xalis mənfəət** | | **1.888.937** | **2.045.234** |
| Digər gəlir (xərc) | | - | - |
| **İl üzrə cəmi məcmu gəlir** | | **1.888.937** | **2.045.234** |

06 dekabr 2024-cü il tarixində ASC rəhbərliyi adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Qasımov Xanoğlan
Direktor

İsayev Mahir
Baş Mühasib

| | Səhm kapitalı | Digər Kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital: |
|---|---|---|---|---|
| **01 yanvar 2022-ci il tarixinə** | **10.000** | **43.081.767** | **7.992.799** | **51.084.566** |
| Səhmdar tərəfindən kapital götürülməsi | - | (774.781) | - | (774.781) |
| Mənfəətin istifadəsi(dividend) | - | - | (484.500) | (484.500) |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 2.045.234 | 2.045.234 |
| **31 dekabr 2022-ci il tarixinə** | **10.000** | **42.306.986** | **9.553.533** | **51.870.519** |
| Səhm kapitalında artım | 190.000 | - | - | 190.000 |
| Səhmdar tərəfindən kapital daxilolması | - | 1.043.171 | - | 1.043.171 |
| Mənfəətin istifadəsi(dividend) | - | - | (11.728.000) | (11.728.000) |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 1.888.937 | 1.888.937 |
| **31 dekabr 2023-cü il tarixinə** | **200.000** | **43.350.157** | **(285.530)** | **43.264.627** |

06 dekabr 2024-cü il tarixində Cəmiyyətin rəhbərliyi adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Qasımov Xanoğlan
Direktor

İsayev Mahir
Baş Mühasib

*(məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il | 31 dekabr 2022-ci il tarixində bitən il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Vergidən əvvəlki mənfəət (azadolma və güzəştlərdən əvvəl) | | 2.038.046 | 2.272.482 |
| **Vergidən əvvəl mənfəəti xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər:** | | | |
| Torpaq, tikili və avadanlıqların köhnəlməsi | 7 | 5.194.911 | (5.828) |
| Torpaq, tikili və avadanlıqların satilması | 7 | 160.000 | (327.000) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **7.392.957** | **1.939.654** |
| **Dövriyyə vəsaitlərində dəyişikliklər** | | | |
| Mallar üzrə xalis artım (azalma) | 8 | 1.155.823 | (4.129.484) |
| Hazır məhsullar üzrə xalis artım (azalma) | 9 | 1.167.268 | (1.141.594) |
| Verilmiş avanslar üzrə xalis artım (azalma) | 11 | 1.894.982 | (4.535.420) |
| Debitor borclar üzrə xalis artım (azalma) | 12 | (5.784.205) | 1.342.900 |
| Gelecek hesabat dövrünün vergi aktivleri xalis artım (azalma) | 26 | (7.831) | - |
| Digər aktivlər üzrə xalis artım (azalma) | 13 | (43.726) | 98.457 |
| Kreditor borclar üzrə xalis artım (azalma) | 16 | 4.914.329 | (2.361.799) |
| Alınmış avanslar üzrə xalis artım (azalma) | 17 | (27.125) | 637.787 |
| Gələcək dövrün gəlirləri üzrə xalis artım (azalma) | | - | (34.363) |
| Vergi öhdəlikləri üzrə xalis artım (azalma) | 18 | 1.914.213 | (535.428) |
| Kreditlər üzrə artım (azalma) | 20 | 4.183.812 | 3.708.555 |
| Digər öhdəliklər üzrə xalis artım (azalma) | 19 | 762.018 | 5.133.534 |
| **Vergidən əvvəl əməliyyat fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitləri** | | **17.522.515** | **122.799** |
| Ödənilmiş mənfəət vergisi | | (124.460) | (46.091) |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə edilmiş daxil olan xalis pul vəsaitləri** | | **17.398.055** | **76.708** |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Torpaq, tikili və avadanlıqların alınması | 7 | (7.279.361) | (2.841.078) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş pul vəsaitləri** | | **(7.279.361)** | **(2.841.078)** |
| **Maliyyələşdirmə fəaliyyəti** | | | |
| Nizamnamə kapitalına qoyuluş | | 190.000 | - |
| Elan olunmuş dividend | | (11.728.000) | (484.500) |
| Səhmdar tərəfindən daxilolmalarda xalis artım | | 1.043.171 | (774.781) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **(10.494.829)** | **(1.259.281)** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri xalis artım | | (376.135) | (4.023.651) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin əvvəlinə | 10 | 885.589 | 4.909.240 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri -ilin sonuna** | | **509.454** | **885.589** |

06 dekabr 2024-cü il tarixində Cəmiyyətin rəhbərliyi adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Qasımov Xanoğlan
Direktor

İsayev Mahir
Baş Mühasib

## 1. ASC və onun fəaliyyəti

Hazırkı maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə "A+CO" ASC (bundan sonra hazırkı qeyddə "ASC" adlandırılacaq) üçün hazırlanmışdır. Şirkət 1997 – ci ildə nar şirəsi xammalının istehsalı və satışı ilə fəaliyyətə başlamışdır. 2006 – cı ildən şirkət A+CO MMC adı ilə spirtli məhsulların istehsalına dair lisenziya alıb və bu adla fəaliyyətinə davam edir. Lisenziya aldıqdan sonra konyak spirti istehsalı ilə, qısa zaman sonra isə qablaşdırılmış çaxır, araq və konyak məhsulları istehsalına və satışını həyata keçirməyə başlamışdır. ASC-nin təsiscisi 14.09.2023-cü ildə dəyişərək Nəbiyev Elbrus Ənvər oğlu olmuşdur. Nəbiyev Elbrus Ənvər oğlu 14.09.2023-cu il tarixindən hesabat ilinin sonuna qədər ASC-nin 100% (faiz) səhminə sahib omuşdur.

**Hüquqi fəaliyyət ünvanı:** Abşeron rayonu, Xırdalan şəhəri, Həsən Əliyev küçəsi. Ev 121.

## 2. ASC-nin əməliyyat mühiti

Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Cəmiyyət inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə, dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

2023-cü il Azərbaycan iqtisadiyyatında yeni istiqamətləri müəyyənləşdirdi. İşğaldan azad olunmuş ərazilərimizin iqtisadiyyata inteqrasiyası daha da genişləndi, qeyri-neft sekorunda böyük artımlar qeydə alındı.
Dünyada geosiyasi və geoiqtisadi gərginliklərin davam etməsi, dünya iqtisadiyyatında qeyri-müəyyənliklərin və risklərin artması şəraitində 2023-cü ildə Azərbaycan iqtisadiyyatında iqtisadi artım prosesləri davam etmişdir. 2023-cü ildə ÜDM-də 1,1%, qeyri neft-qaz sektorunda isə 3,7% artım müşahidə olunmuşdur. Qeyri neft-qaz sektorunun artım tempinə tikinti, qeyri neft-qaz sənayesi, turizm və ictimai iaşə sahələri yüksək artırıcı təsir göstərmişdir.
2023-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 20,3 milyard manat və ya 2022-ci ilə nisbətən 9,8% çox vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 10,9%, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 9,3% artmışdır.

Hesabat dövründə əsas kapitala yönəldilmiş investisiyaların 80,9%-i və ya 16,4 milyard manatı daxili, 19,1%-i və ya 3,9 milyard manatı isə xarici mənbələr hesabına formalaşmışdır. Əsas kapitala investisiyaların 30,9%-i və ya 6,3 milyard manatı neft-qaz sektoruna, 69,1%-i və ya 14,0 milyard manatı isə qeyri neft-qaz sektoruna yönəldilmişdir.

Əsas kapitala investisiyaların maliyyələşmə mənbələri üzrə müəssisə və təşkilatların öz vəsaiti 13,1%, bank kreditləri 19,5%, büdcə vəsaitləri 6,5%, sair vəsaitlər 25,5% artmışdır. 2023-cü ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 11,2% artaraq 923,1 manat təşkil etmişdir. Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2023-cü ildə xarici ticarət dövriyyəsinin həcmi 51,2 milyard ABŞ dolları, o cümlədən ixracın həcmi 33,9 milyard ABŞ dolları və idxalın həcmi isə 17,3 milyard ABŞ dolları olmuş və nəticədə 16,6 milyard ABŞ dolları həcmində müsbət ticarət saldosu yaranmışdır. 2023-cü ildə 2022-ci ilə nəzərən qeyri neft-qaz ixracı 9,8% artaraq 3,3 milyard ABŞ dolları olmuşdur. 2023-cü ildə 2022-ci ilə nəzərən dövlət büdcəsinin gəlirləri 16,0% artaraq 35,6 milyard manat, dövlət büdcəsinin xərcləri isə 13,7% artaraq 36,5 milyard manat olmuşdur. 2023-cü ilin sonu tarixinə ölkənin strateji valyuta ehtiyatları 68,5 milyard ABŞ dolları olmuşdur ki, bu da 2023-cü il üzrə ÜDM-nin 95%-inə yaxındır.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi valyuta ehtiyatları isə 2023-cü ilin sonu tarixinə 2022-ci ilin müvafiq tarixi ilə müqayisədə 29,1% artaraq 11,6 milyard ABŞ dolları olmuşdur.

Azərbaycan Respublikası öz ərazi bütövlüyünü təmin ediyindən eibarən işğaldan azad edilmiş ərazilərə yeni investisiyaları təşviq etmiş və yenidən qurma üçün dövlət vəsaiti ayırmışdır. Belə ki, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. 2023-cü ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün ötən illə müqayisədə 13 faiz daha çox, yəni 3 milyard manat nəzərdə tutulub.

İşğaldan azad edilmiş ərazilərə sosial-iqtisadi həyatın geri qaytarılmasında özəl sahibkarlar əhəmiyyətli rol oynayır. Dövlət həmin ərazilərə yerli və xarici biznes nümayəndələrinin investisiya qoyması üçün əlverişli mühitin yaradılmasını prioritet istiqamətlərdən biri kimi götürüb. Bu məqsədlə 2022-ci il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənib. Proqramın əsas hədəf göstəricilərindən biri azad olunmuş ərazilərdə iqtisadiyyatın yenidən qurulması üçün yeni investisiyaların cəlb olunması ilə sahibkarlıq mühitinin formalaşdırılmasıdır. Sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək də Dövlət proqramının əsas məqsədlərindəndir.

Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyətini təşviq etmək üçün hökumət artıq bir sıra mühüm addımlar atıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına əsasən, bu il yanvarın 1-dək işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq üçün agentliyə 1339 müraciət daxil olub. Müraciətlərin əhəmiyyətli hissəsi, yəni 873-ü yerli, 466-sı isə 37 ölkəni əhatə edən xarici müraciətlərdir. Türkiyə, Rusiya, Qazaxıstan və Macarıstandan olan sahibkarlar Qarabağ və Şərqi Zəngəzurda investisiya qoymağa xüsusən maraqlıdırlar. Dövlət tərəfindən müəyyənləşmiş sahibkarlığa dəstək mexanizmləri qısa müddətdə bu ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslərin sayını artıracaq.

Dövlətin planlı və mərhələli şəkildə apardığı bərpa prosesinin ilk mərhələsi olan ərazilərin minalardan təmizlənməsi Azərbaycan Ordusunun şanlı Zəfərindən dərhal sonra başlanılıb. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin məlumatına görə, 2020-2022-ci illərdə 57,6 min hektar ərazi minalardan təmizlənib. Həmçinin qeyd edək ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın birinci prioritetinin birinci istiqaməti işğaldan azad olunmuş 280 min hektar ərazinin 2022-2026 –ci illərdə minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsini nəzərdə tutur. Bununla həmin ərazilər bütövlükdə tam təhlükəsiz yaşayış və sosial-iqtisadi həyatın bərpası üçün uyğun olacaq.

Həmin ərazilərdə investisiya mühitinin qurulması üçün növbəti mərhələ sayılan fiziki infrastrukturun böyük hissəsi artıq qurulub. İşğaldan azad olunmuş ərazilər elektrik enerjisi ilə tam təmin olunub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkənin vahid enerji şəbəkəsinə qoşulub. Nəqliyyat infrastukturu tam sürətlə bərpa olunmaqla, ölkənin digər şəhər və rayonlarının yol infrastukturu ilə birləşdirilir. Region üçün xüsusi əhəmiyyət kəsb edən Tərtər–Çaylı–Suqovuşan-Talış, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun (Zəfər yolu) və Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun tikintisi artıq başa çatdırılıb. Digər avtomobil yollarının tikinti və bərpasının 2026-cı ilin sonunadək başa çatdırılması nəzərdə tutulub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ilə təmin olunması məqsədilə dövlət proqramında su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının, subartezian quyularının, hidroqovşaqların və digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası və yenilərinin tikintisinin 2026-cı ilin sonunadək yekunlaşdırılması planlaşdırılıb. Postkonflikt ərazilərində artıq iki beynəlxalq hava limanı fəaliyyət göstərir. Üçüncü aeroportun – Laçın hava limanının tikintisinin isə iki il ərzində başa çatdırılacağı gözlənilir.

## 3. Əsas uçot prinsiplərinin xülasəsi

Maliyyə hesabatlarının hazırlanması zamanı tətbiq olunan əsas mühasibat prinsipləri aşağıda göstərilmişdir.

**Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları**
ASC-nin hazırkı maliyyə hesabatları Mühasibat Uçotu Beynəlxalq Standartları Şurası ("MUBSŞ") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında, aşağıdakı şərhlər istisna olmaqla hazırlanmışdır.

**Müqayisəli məlumatların hazırlanmasına dair tələb**

1 saylı MUBS maliyyə hesabatlarının təqdimatına dair ümumi tələbləri, onların strukturuna dair təlimatları və onların məzmununa dair minimum tələbləri müəyyən edir. 1 saylı MUBS müəssisələrdən tam maliyyə hesabatlarını təqdim edilərkən əvvəlki il üçün müqayisəli məbləğləri (qeydlərdəki müqayisəli məbləğlər daxil olmaqla) təqdim etməyi tələb edir.

ASC maliyyə hesabatlarında müqayisəli məlumatları təqdim etməmişdir, beləki bu hesabat çərçivəsində tələb olunmur

***Fasiləsizlik prinsipi.***

Maliyyə hesabatları ASC-nin yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, ASC yaxın gələcəkdə ləğv olunacağına, habelə fəaliyyətini dayandırmağa və ya Azərbaycan Respublikasının Qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək.

## 3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində ASC-nin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi fərdi maliyyə hesabatları standartları, Rəhbərlik tərəfindən ASC-nin davamlılıq prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri nəzərə alınmalı olan müəyyən məsələləri və daimilik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Davamlılıq prinsipi təxminlərinin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

***Əməliyyat valyutası.*** Hazırkı maliyyə hesabatlarındakı məbləğlər min Azərbaycan Manatı ilə ("AZN") əks olunmuşdur. Azərbaycan Manatı Azərbaycan Respublikasının rəsmi valyutasıdır.

31 dekabr 2023-cü il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ dolları =1.7000 AZN; 1 Avro=1.8766 AZN; 1 Rus rublu=0.0188 (01 yanvar 2023: 1 ABŞ dolları =1.7000AZN; 1 Avro=1.8114 AZN; 1 Rus rublu=0.023).

***Təqdimatın əsasları.*** Maliyyə hesabatları aşağıda göstərilmiş mühasibat uçotu prinsiplərində başqa cür qeyd olunmayıbsa (məsələn, müəyyən maliyyə alətləri ədalətli dəyər prinsipi ilə ölçülür) tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır. İlkin alış dəyəri adətən aktivlərin mübadilə edilə biləcəyi ədalətli dəyərə əsaslanır.

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı aktivin satılmasından alına bilən və ya öhdəliyin köçürülməsinə görə ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- aktivin və ya öhdəliyin əsas bazarı; və ya
- əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

ASC-nin əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülür və ehtimal edilir ki, bazar iştirakçıları bu zaman öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər.

Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının, aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla, iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

ASC-nin mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

**3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)**

Ədalətli dəyər qiymətləndirmə üçün məlumatların müşahidə edilə bilmə dərəcəsinə və bütünlüklə ədalətli dəyərin müəyyən olunmasında məlumatların əhəmiyyətinə əsaslanaraq müxtəlif iyerarxik kateqoriyalara bölünür:

- 1-ci səviyyə - ədalətli dəyər eyni aktivlər/öhdəliklərin aktiv bazardakı mövcud qiymətindən (dəyişdirilməmiş) əldə edilir.
- 2-ci səviyyə - ədalətli dəyər 1-ci səviyyədə göstərilən mövcud qiymətlərdən fərqli olaraq aktiv və ya öhdəlik üçün birbaşa (məs., qiymətlər) və ya dolayı yolla ( qiymətlərdən əldə olunan) müşahidə edilə bilən məlumatlardan əldə olunur.
- 3-cü səviyyə - ədalətli dəyər müşahidə edilən bazar məlumatlarına əsaslanmayan (müşahidə edilə bilinməyən məlumatlar ) aktiv və öhdəliklər üçün məlumatları özündə əks etdirən qiymətləndirmə mexanizmlərindən əldə olunur

.Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasındakı köçürmələr ASC tərəfindən dəyişikliyin baş verdiyi hesabat dövrünün sonunda tanınır. Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün ASC hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir.

İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə bağlıdır. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri əməliyyat xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri (GKZ) üçün ehtiyatı çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və da müvafiq maddələrin balans dəyərinə daxil edilir.

## 3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)

### Maliyyə aktivləri

#### *İlkin tanınma və ölçmə*

Maliyyə aktivləri ilkin tanınmada sonradan amortizasiya hesablanmış dəyərlə, digər ümumi gəlir (DMG) vasitəsilə ədalətli dəyərlə tanınan aktivlər və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi təsnifləşdirilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilən faiz dərəcəsidir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir.

İlkin tanınmada maliyyə aktivlərinin təsnifatı maliyyə aktivləri üzrə müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin xüsusiyyətlərindən və ASC-nin bunları idarə etmək üçün seçdiyi biznes modeldən asılıdır. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya ASC-nin praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları istisna olmaqla ASC ilk öncə maliyyə aktivlərini ədalətli dəyərlə ölçür və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi tanınan aktivlər üçün əməliyyat xərclərini əlavə edir.

Maliyyə aktivinin amortizasiya dəyəri ilə və ya DMG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi və ölçülməsi üçün qalan əsas məbləğ üzrə yalnız əsas məbləğin və faizlərin ödənilməsini ("YƏMFÖ") təşkil edən pul vəsaitlərinin hərəkəti yaradılmalıdır. Bu qiymətləndirməyə "YƏMFÖ testi" deyilir və bu, hər bir alət üzrə ayrıca aparılır.

ASC-nin maliyyə aktivlərini idarə etmək üçün seçdiyi biznes modeli, onun pul vəsaitlərinin hərəkətini yaratmaq məqsədilə maliyyə aktivlərinin idarəedilməsi metodunu təsvir edir. Başqa sözlə, ASC-nin biznes modeli pul vəsaitlərinin hərəkətinin müqavilədən, maliyyə aktivlərinin satışından və ya onların hər ikisindən yaranacağını müəyyən edir.

Qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alınması və ya satılması əməliyyatları alqı-satqı tarixində, yəni ASC aktivi almaq və ya satmaq öhdəliyini üzərinə götürdüyü tarixdə tanınır.

**3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)**

***Sonrakı ölçülmə***

Sonrakı ölçülmə məqsədilə maliyyə aktivləri dörd kateqoriyaya təsnifləşdirilir:

- Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri;
- Məcmu gəlirləri və zərərləri yenidən bölüşdürməklə DMG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Uçotdan çıxarılanda məcmu gəlirləri və zərərləri yenidən bölüşdürmədən DMG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri);
- Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivləri.

***Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri);***

Bu kateqoriya ASC-yə daha uyğundur.

Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, ASC maliyyə aktivini amortizasiya olunmuş dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı müqavilə üzrə pul vəsaitlərini toplamaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri sonradan Effektiv Faiz Dərəcəsi (EFD) metodundan istifadə etməklə ölçülür və dəyərsizləşmə hesablanır. Gəlir və zərərlər mənfəət və ya zərərdə aktiv uçotdan çıxarılanda, dəyişiklik ediləndə və ya dəyərsizləşəndə tanınır.

ASC-nin bütün maliyyə aktivləri amortizasiya olunmuş dəyərlə ölçülür.

Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, ASC borc alətlərini DMG ilə ədalətli dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı həm müqavilə üzrə pul vəsaitlərini toplamaq, həm də satılmaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

DMG ilə ədalətli dəyərlə borc alətləri üçün faiz gəliri, xarici valyutanın yenidən qiymətləndirilməsi və dəyərsizləşmə zərərləri və ya qaytarmalar mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda tanınır və amortizasiya hesablanmış dəyərlə maliyyə aktivləri ilə eyni qaydada hesablanır. Ədalətli dəyərdə qalan dəyişikliklər DMG ilə tanınır. Uçotdan çıxarılanda DMG-də tanınmış məcmu ədalətli dəyərdə dəyişiklik mənfəət və ya zərərə yenidən bölüşdürülür. ASC-nin DMG ilə ədalətli dəyərlə borc alətləri mövcud deyil.

**3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)**

*DMG ilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri)*

İlkin tanınmada ASC 32 saylı "Maliyyə alətləri: Təqdimatı" adlı MUBS əsasında kapital tərifinə uyğun olan bəzi kapital investisiyalarını ticarət üçün saxlanılan alətlər kimi deyil, kapital alətləri kimi təsnif etmək üçün yekun seçim edə bilər. Belə təsnifat alətlər üzrə fərdi şəkildə müəyyən edilir.

Bu kapital alətləri üzrə gəlir və zərərlər heç zaman mənfəət və ya zərərə aid edilmir. Ödəmə hüququ müəyyən ediləndə, dividendlər mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda digər gəlir kimi tanınır. Lakin ASC alətin dəyərinin bir hissəsinin qaytarılması olan belə daxilolmalardan faydalanırsa, belə gəlirlər DMG-də tanınır. DMG vasitəsilə ədalətli dəyərlə kapital alətləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsi aparılmır.

***Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri***

ASC-nin saxladığı ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivlərinə ticarət üçün saxlanılan maliyyə aktivləri, ilkin tanınmada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri və ya ədalətli dəyərlə ölçülməsi mütləq olan aktivlər daxildir.

Yaxın zamanda satış və ya yenidən alış məqsədi ilə əldə olunarsa, maliyyə aktivləri ticarət üçün saxlanılan aktivlər kimi təsnif olunur. Effektiv hecinq alətləri kimi təyin olunmayan törəmə alətlər, o cümlədən ayrılmış əlaqədar törəmə alətlər də satış üçün saxlanılan aktivlər kimi təsnif olunur. Yalnız əsas məbləğ və faizlərin ödənilməsini təşkil etməyən pul vəsaitlərinin hərəkətini yaradan maliyyə aktivləri, biznes modeldən asılı olmayaraq, mənfəət və ya zərərdə ədalətli dəyərlə təsnifləşdirilir. Borc alətlərinin amortizasiya hesablanmış dəyərlə və ya DMG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi üçün yuxarıda təsvir edilən meyarlara baxmayaraq borc alətləri, bununla uçot uyğunsuzluğu aradan qaldırılar və ya əhəmiyyətli dərəcədə azaldılarsa, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri kimi təyin edilə bilər.

Hibrid müqavilənin tərkib hissəsi olan, maliyyə öhdəliyini və ya qeyri-maliyyə əsas müqaviləni ehtiva etdirən asılı törəmə alət, aşağıdakı hallarda əsas müqavilədən ayrılır və ayrıca alət kimi uçota alınır: iqtisadi xüsusiyyətlər və risklər əsas müqavilə ilə sıx əlaqəli deyildir, asılı törəmə alətlə eyni şərtləri olan ayrıca alət törəmə alət anlayışına uyğundur və hibrid müqavilə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilməyən alət kimi ölçülmür. Asılı törəmə alətlər ədalətli dəyərlə ölçülür, ədalətli dəyərdə dəyişikliklər mənfəət və ya zərərdə tanınır. Müqavilə əsasında tələb olunacaq pul vəsaitlərinin hərəkətini əhəmiyyətli dərəcədə dəyişən müqavilənin şərtlərində dəyişiklik olanda və ya maliyyə aktivi ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən aktivlər kateqoriyasından xaric yenidən təsnifləşdiriləndə yenidən qiymətləndirmə aparılır.

Maliyyə aktivinə dair əsas müqaviləni ehtiva etdirən hibrid müqavilə daxilində asılı törəmə alət ayrıca uçota alınmır. Maliyyə aktivi, asılı törəmə alətlə birlikdə, tam şəkildə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivi kimi təsnifləşdirilməlidir.

***Uçotdan çıxarma***

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan (yəni ASC-nin adından) çıxarılır:

**3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)**

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;
- ASC özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və ya ASC: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

Hibrid müqavilənin tərkib hissəsi olan, maliyyə öhdəliyini və ya qeyri-maliyyə əsas müqaviləni ehtiva etdirən asılı törəmə alət, aşağıdakı hallarda əsas müqavilədən ayrılır və ayrıca alət kimi uçota alınır: iqtisadi xüsusiyyətlər və risklər əsas müqavilə ilə sıx əlaqəli deyildir, asılı törəmə alətlə eyni şərtləri olan ayrıca alət törəmə alət anlayışına uyğundur və hibrid müqavilə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilməyən alət kimi ölçülmür. Asılı törəmə alətlər ədalətli dəyərlə ölçülür, ədalətli dəyərdə dəyişikliklər mənfəət və ya zərərdə tanınır. Müqavilə əsasında tələb olunacaq pul vəsaitlərinin hərəkətini əhəmiyyətli dərəcədə dəyişən müqavilənin şərtlərində dəyişiklik olanda və ya maliyyə aktivi ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən aktivlər kateqoriyasından xaric yenidən təsnifləşdiriləndə yenidən qiymətləndirmə aparılır.

Maliyyə aktivinə dair əsas müqaviləni ehtiva etdirən hibrid müqavilə daxilində asılı törəmə alət ayrıca uçota alınmır. Maliyyə aktivi, asılı törəmə alətlə birlikdə, tam şəkildə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivi kimi təsnifləşdirilməlidir.

***Uçotdan çıxarma***

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan (yəni ASC-nin adından) çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;
- ASC-nin özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və ya ASC: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

ASC aktivdən pul vəsaitlərini almaq hüququnu köçürdükdə və ya "tranzit" razılaşmasına qoşulduqda, mülkiyyət hüququ ilə bağlı risk və faydaları saxlayıb-saxlamadığını və nə dərəcədə saxladığını qiymətləndirir. ASC nə aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş, nə də özündə saxlamışdırsa, nə də aktiv üzrə nəzarət hüququnu köçürmüşdürsə, aktiv ASC-nin həmin aktivdə davam edən iştirakı həddində əks etdirilir. Bu halda ASC əlaqəli öhdəliyi də tanıyır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik ASC-nin saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür.

Aktivdə iştirakın köçürülmüş aktiv üzrə zamanət formasında davam etməsi aktivin ilkin balans dəyəri və ASC-dən tələb oluna biləcək maksimal ödəniş məbləğindən daha az olanı ilə ölçülür.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi***

ASC ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunmayan bütün borc alətləri üçün gözlənilən kredit zərərləri (GKZ) üçün ehtiyatı tanıyır. GKZ müqaviləyə uyğun olaraq ödəniləcək müqavilədə nəzərdə tutulan pul vəsailətinin hərəkəti ilə ASC-nin alınmasını gözlədiyi bütün pul vəsaitlərinin hərəkəti arasında fərqi ilkin effektiv faiz dərəcəsinə yaxın dərəcə ilə diskontlaşdırmaqla müəyyən edilir.

## 3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)

GKZ iki mərhələdə müəyyən edilir. İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artmayan kredit öhdəlikləri üçün GKZ növbəti 12 aylıq dövr ərzində mümkün olan defolt hadisəsindən irəli gələn kredit zərərləri üçün ayrılır (12 aylıq GKZ). İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artan kredit öhdəlikləri üzrə kredit ehtiyatı aktivin qalan müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə (aktivin müddəti ərzində gözlənilən kredit zərəri və ya AMəGKZ) əsaslanır.

Ticarət debitor borcları üçün ASC GKZ-nin hesablanmasında sadələşdirilmiş yanaşma tətbiq edir.

Beləliklə, ASC kredit riskində dəyişiklikləri izləmir, əvəzinə hər hesabat tarixində AMƏGKZ əsasında kredit zərərini tanıyır.

DMG ilə ədalətli dəyərlə borc alətləri üçün ASC aşağı kredit riskinin sadələşdirilməsini tətbiq edir. Hər bir hesabat tarixində ASC lazımsız xərc və ya səy sərf etmədən əldə edilə bilən bütün əsaslı və təsdiqlənən məlumatlardan istifadə edərək borc alətinin aşağı kredit riskinə məruz qalıb-qalmadığını qiymətləndirir. Belə qiymətləndirmə apararkən ASC borc alətinin daxili kredit reytinqini yenidən qiymətləndirir. Bundan əlavə, ASC müqavilə ödənişləri 90 gündən çox gecikdiriləndə kredit riskində əhəmiyyətli artımın mövcud olduğunu hesab edir.

Müqavilə üzrə qalan məbləğlərin tam şəkildə ASC-nin saxladığı hər hansı kredit təminatları nəzərə alındıqdan əvvəl əldə edilə bilməsi ehtimalının zəif olduğuna işarə edən daxili və ya xarici məlumat mövcud olduğu təqdirdə maliyyə aktivi üzrə defoltun baş verdiyi hesab edilə bilər. Maliyyə aktivi müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin bərpa ediləcəyi əsaslı olaraq gözlənilməyəndə silinir.

**Maliyyə öhdəlikləri**

***İlkin tanınma və ölçmə***

Maliyyə öhdəlikləri ilkin tanınma zamanı, müvafiq olaraq, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri, kreditlər və borc öhdəlikləri və ya effektiv hecinqdə hecinq aləti kimi təyin olunmuş törəmə alətləri kimi təsnif edilir.

Maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə tanınır və kreditlər, borclar və kreditor borcları halında birbaşa aid edilən əməliyyat xərcləri çıxılır. ASC-nin maliyyə öhdəliklərinə ticarət və digər kreditor borcları daxildir.

***Sonrakı ölçmə***

Maliyyə öhdəliklərinin ölçülməsi onların aşağıda göstərilən təsnifatından asılıdır:

***Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri***

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri və ticarət üçün saxlanılan maliyyə öhdəlikləri və ilkin tanınmada Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi təyin edilmiş maliyyə öhdəlikləri daxildir.

## 3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)

Maliyyə öhdəlikləri yaxın zamanda geri alınmaq məqsədilə qəbul edilirsə ticarət üçün saxlanılan öhdəliklər kimi təsnifləşdirilir. Bu kateqoriyaya eyni zamanda 9 saylı MHBS-də müəyyən edildiyi qaydada hecinq münasibətlərində hecinq aləti kimi təyin olunmayan törəmə maliyyə alətləri daxildir. Ayrılmış əlaqəli törəmə alətlər də effektiv hecinq aləti kimi təyin edilmədiyi hallarda ticarət üçün saxlanılan alətlər kimi təsnifləşdirilir.

Ticarət üçün saxlanılan öhdəliklər üzrə gəlir və ya zərərlər mənfəət və ya zərər haqqında hesabatda tanınır.

İlkin tanınma tarixində ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi tanınmış öhdəliklər ilkin tanınma tarixində və yalnız 9 saylı MHBS-də nəzərdə tutulan meyar qarşılananda təyin olunur. ASC hər hansı maliyyə öhdəliyini ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan öhdəlik kimi təyin etməmişdir.

***Kreditlər və borc öhdəlikləri***

İlkin tanınmadan sonra faiz hesablanan kreditlər və borc öhdəlikləri daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Gəlirlər və zərərlər mənfəət və ya zərərdə öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də amortizasiya prosesi vasitəsilə əks etdirilir. Amortizasiya hesablanmış dəyər satınalma zamanı tətbiq edilən endirimi və ya əlavə qiyməti və effektiv faiz dərəcəsinin ayrılmaz hissəsi olan haqq və xərcləri nəzərə almaqla hesablanır. EFD-nin amortizasiyası mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda maliyyə xərclərinə daxil edilir. Bu kateqoriya faiz hesablanan kreditlərə və borc öhdəliklərinə tətbiq edilir.

***Tanınmanın dayandırılması***

Maliyyə öhdəliyinin tanınması bu halda dayandırılır ki, həmin öhdəlik ya dayandırılmış, ya ləğv olunmuş, ya da müddəti bitmiş olsun. Əgər mövcud maliyyə öhdəliyi həmin kreditor qarşısında fərqli şərtlərlə başqa öhdəliklə əvəz edilərsə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirilərsə, bu cür əvəzedilmə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq balans dəyərlərindəki fərq mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda öz əksini tapır.

**Maliyyə alətlərinin qarşılıqlı əvəzləşdirilməsi**

Maliyyə aktivləri və maliyyə öhdəliklərinin tanınmış məbləğlərini qarşılıqlı əvəz etmək üçün qanuni hüquqa malik olduğu və ya hesablaşmanı xalis əsasda həyata keçirmək, ya da eyni vaxtda aktivi reallaşdırmaq və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda, qarşılıqlı əvəzləşdirir və da xalis məbləğ kimi təqdim edir.

**Ticarət və digər debitor borcları**

Ticarət və sair debitor borcları ilk öncə ədalətli dəyərlə tanınır və sonra effektiv faiz metodundan istifadə etməklə, gözlənilən kredit zərərləri üzrə ehtiyatı çıxaraq, amortizasiya hesablanmış dəyərlə ölçülür. Debitor borcları ASC-nin müəyyən şərtsiz asılı olaraq ödəniş almaq hüququndan ibarətdir.

## 3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)

### Nağd pul vəsaitləri və onların ekvivalentləri

Nağd pul vəsaitləri və onların ekvivalentləri əldə olan pul, tələbli depozitlər və nağda çevrilə bilən digər qısa müddətli yüksək likvidli investisiyalardan ibarətdir və dəyərində əhəmiyyətsiz dərəcədə dəyişikliklərə məruz qalır.

### Kreditor borcları

Kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

### Borc öhdəlikləri

Bütün borc vəsaitləri ilkin olaraq borc vəsaitləri ilə əlaqədar olaraq qiymətli kağızların emissiyasında əldə edilmiş xalis gəlirin ədalətli dəyərində tanınır. Borc vəsaitləri effektiv faiz metodunu istifadə etməklə amortizasiya dəyəri ilə hesablanır.Əmlak müəssisə və avadanlıqların tikintisinə görə alınmış borc vəsaitləri üzrə faiz xərcləri aktivlərin aidiyyatı üzrə istifadəsi üçün hazırlanması və tamamlanmasına sərf olunan zaman müddətində kapitallaşdırılır. Bütün digər borc xərcləri xərcə silinir.

### Əmlak, tikili və avadanlıqlar

Əmlak, tikili və avadanlıqlar, yığılmış köhnəlməni və tələb olunduqda dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə qeydə alınır. Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərərdə əks etdirlir.

### Davam edən tikintilər

Davam edən tikintilər, tikinti ilə birbaşa əlaqəli olan müctəlif əlavə xərclər də daxil olmaqla, əmlak, tikili və avadanlıqların əldə edilməsi ilə bağlı bütün xərcləri ehtiva edir. Bu aktivlər üzrə yığılmış amortizasiya və köhnəlmə faktiki olaraq istifadəyə hazır olduqda başlanır.

### Köhnəlmə/amortizasiya

Torpaq üçün amortizasiya hesablanmır. Digər əsas vəsaitlər üzrə köhnəlmə azalan qalıq metoduna, yəni əsas vəsaitlərin aşağıda göstərilən təxmini faydalı xidmət müddəti ərzində aktivlərin ilkin dəyərini və ya yenidən qiymətləndirilmiş dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | |
|---|---|
| Qurğu və avadanlıqlar | 20% |
| Nəqliyyat vasitələri | 25% |
| Mebel və avadanlıqlar | 20% |
| Kompüter və rabitə avadanlıqları | 25% |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, ASC-nin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hesabat dövrünün sonunda nəzərdən keçirilir və dəqiqləşdirilir.

## 3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)

### Əlaqəli tərəflər

Əlaqəli tərəflər haqqında məlumat 24 saylı "Əlaqəli tərəflər barədə açıqlamalar" adlı MUBS-yə uyğun olaraq açıqlanır.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər. Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

### Mənfəət vergisi

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş müvafiq qanunvericiliyinə uyğun olaraq göstərilmişdir Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə bilavasitə kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlirlər haqqında hesabatda qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və passivlərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədilə onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır.Təxirə salınmış vergi qalıqları, balans tarixinə qüvvədə olan vergi dərəcələrinə əsasən müvafiq təxirə salınmış mənfəət vergisi öhdəliyi aktivi müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi aktivi vəya öhdəliyi ancaq bir müəssisədaxilində əvəzləşdirilə bilər.Təxirə salınmış vergi aktivi müvəqqəti fərqlərdən yaranan və eləcə də keçmiş illərdən gələn zərərdən yaranmış olan vergi aktivi ancaq o vaxt istifadə edilə vəya tanına bilər ki, gələcək illərdə ASC-nin gəlir əldə edəcəyi guman edilir.

Təxirə salınmış vergi aktivləri mövcud fərqlərin gələcək vergi mənfəətindən tutulması mümkün olacağı halda tanınır.

Təxirə salınmış mənfəət vergisi müvəqqəti fərqlərin bərpa vaxtına ASC-nin tərəfindən nəzarət olunması və müvəqqəti fərqlərin yaxın gələcəkdə dəyişilməsi ehtimalının mümkünlüyu istisna olmaqla şərik və törəmə müəssisələrə qoyulan investisiyalardan irəli gələn müvəqqəti fəqlərdən təmin olunur.

### Torpaq vergisi.

Azərbaycan Respublikasında torpaq mülkiyyətçiləri və istifadəçiləri müxtəlif dərəcələrlə torpaq vergisinə cəlb olunurlar.

Hər 100 kvadratmetr üçün 0,1 AZN ilə 10 AZN arasında dəyişən vergi dərəcəsi torpaq növündən, yəni kənd təsərrüfatı, sənaye, tikinti, rabitə, ticarət və ya yaşayış məqsədləri üçün torpaq sahələrindən asılıdır.

## 3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)

Hesabat dövrü – təqvim ayı. Torpaq sahibi olan və ya istifadə edən hüquqi şəxslər üçün vergi bəyannaməsinin təqdim edilməsi üçün son tarix hər ilin 15 mayıdır, vergi avqustun 15-dən və noyabrın 15-dən gec olmayaraq bərabər hissələrlə ödənilməlidir.

**Əmlak vergisi.**

Əmlakın qalıq dəyərindən artıq bir məbləğdə sığortalanması və əmlak vergisi bazar dəyəri ilə hesablandığı hallar istisna olmaqla, rezident hüquqi şəxslər və daimi nümayəndəliyi olan qeyri-rezident hüquqi şəxslər üçün vergi bazası onların əsas vəsaitlərinin orta illik qalıq dəyəridir. Beləliklə, bu cür hüquqi şəxslərə məxsus əsas vəsaitlərin orta illik qalıq dəyəri 1% dərəcəsi ilə əmlak vergisinə tutulur.

Eyni zamanda rezident və qeyri-rezident fiziki şəxslər üçün vergi bazasına binalar və onların hissələri, habelə rezident fiziki şəxslərin su və hava nəqliyyat vasitələri daxildir, burada əmlak vergisi dərəcəsi mülkiyyət növündən asılı olaraq dəyişir.

Hesabat dövrü – təqvim ili. Əsas vəsaitlərə sahib olan hüquqi şəxslər hesabat dövründən sonrakı ilin 31 mart tarixindən gec olmayaraq vergi bəyannaməsi təqdim etməlidirlər. Əmlak vergi ödəyicisi olan hüquqi şəxslər vergiləri avans şəklində (keçən il əmlak vergisinin 20% -i) hər rübün ikinci ayının 15-dək yuxarıda göstərilən müddətdən gec olmayaraq son qalığı ilə ödəyirlər.

ASC-nin fəaliyyətinə hesablanmış digər müxtəlif vergilər də mövcuddur. Bu vergilər konsolidasiya edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabata daxil edilmişdir.

**İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar.**

Əmək haqları, məvaciblər, Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar (misal üçün, səhiyyə və uşaq bağçası xidmətləri və ərzaq) ASC işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Xərclər.**

Xərclər mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda funksiyalarına görə əks etdirilir. Xərclərin xarakterinə uyğun kateqoriyaya ayrılması ASC-nin əməliyyat funksiyasına əsaslanır.

**Şərti öhdəliklər və aktivlər.**

Şərti öhdəliklər konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınmır. İqtisadi mənfəəti özündə cəmləşdirən mənbələrin xaric olma ehtimalı az olduqda, konsolidasiya edilmiş maliyyə hesabatlarına qeydlərdə açıqlanır.

Şərti aktivlər konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınmır, lakin iqtisadi mənfəətin daxilolma ehtimalı olduqda açıqlanır

## 3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)

**Mal-material ehtiyatları.**

Mal-material ehtiyatları maya dəyəri ilə xalis satış dəyərindən ən aşağı olan dəyərdə qeydə alınır. Mal-material ehtiyatlarının maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Hazır məhsul və başa çatdırılmamış tikinti işlərinin maya dəyərinə borc vəsaitləri üzrə xərclər istisna olmaqla, xammal, birbaşa işçi qüvvəsi, digər birbaşa xərclər və müvafiq istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir. Xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, fəaliyyətin adi gedişində təxmin edilən satış qiymətidir.

**Ehtiyatlar.**

ASC keçmiş hadisələr nəticəsində cari hüquqi və ya əsaslanmış öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan ehtiyatların azalma ehtimalı olduqda və öhdəlik məbləği etibarlı şəkildə qiymətləndirildikdə uçota alınır. Ehtiyat kimi tanınan məbləğ hesabat dövrünün sonunda müvafiq risklər və qeyri-müəyyənliklər də nəzərə alınmaqla cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan məbləğin təxmini göstəricisidir. Ehtiyatı hesablayarkən cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan pul vəsaitlərinin təxminindən istifadə edilirsə, ehtiyatın qalıq dəyəri bu pul vəsaitlərinin cari dövrə olan diskontlaşdırılmış dəyərinin cəminə bərabərdir (pulun vaxt dəyərinin əhəmiyyət kəsb etdiyi hallarda). Ehtiyatın qarşılanması üçün tələb edilən iqtisadi faydaların tam və ya qismən üçüncü şəxslərin hesabına geri qaytarılması gözlənilirsə, debitor borc aktiv kimi yalnız o halda tanınır ki, üçüncü tərəfin kompensasiya ödəməsi ehtimalı var və bu məbləğ etibarlı şəkildə təxmin edilə bilər.

**Gələcək dövrün xərcləri.**

Gələcək dövrün xərcləri dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla maya dəyərində uçota alınır. Qabaqcadan ödənişə aid olan mal və xidmətlərin bir ildən sonra əldə edilməsi gözlənildikdə və ya qabaqcadan ödəniş ilkin uçot zamanı uzunmüddətli aktiv kimi təsnifləşdirilən aktivə aid olduqda, qabaqcadan ödəniş uzunmüddətli aktiv kimi təsnifləşdirilir.

Aktivlərin alınması üçün qabaqcadan ödənişlər, ASC-nin həmin aktiv üzrə nəzarəti əldə etdiyi halda və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin ASC-yə daxil olması ehtimal edildikdə, həmin aktivin balans dəyərinə köçürülür. Digər qabaqcadan ödənişlər, qabaqcadan ödənişlərə aid olan mal və xidmətlər əldə edildikdə mənfəət və zərər hesabatına silinir. Qabaqcadan ödənişlərə aid olan aktivlər, mal və xidmətlərin əldə edilməyəcəyinə dair əlamət mövcud olduqda, qabaqcadan ödənişin balans dəyəri silinir və müvafiq dəyərsizləşmə üzrə zərər il üzrə mənfəət və zərər hesabatında qeydə alınır.

## 3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)

**Əlavə dəyər vergisi.**

Vergi qanunvericiliyi alış və satışlar üzrə əlavə dəyər vergisinin (ƏDV) netto əsasında ödənməsinə icazə verirlər.

*ƏDV öhdəliyi:* ƏDV öhdəliyinə balans hesabatı tarixində baş vermiş alışlar üzrə hesablanmış, müştərilərdən alınacaqlardan tutulub büdcəyə ödənilən satışlardan daxil olunan ƏDV aiddir. Əlavə olaraq balans hesabatı tarixinə aid olmayan satışlar üzrə də ƏDV öhdəliyi (ertələnmiş ƏDV) yaranır. Alınacaqların amortizasiyası üçün ehtiyatlar hesablanıldıqda dəyərsizləşmə zərəri lazimi yerlərdə ƏDV daxil edilməklə xalis debitor borcları üzrə hesablanır. Ertələnmiş ƏDV öhdəliyi debitorun vergi öhdəliklərindən azad edilməsinədək saxlanılır.

*Əvəzləşdirilən ƏDV:* Əvəzləşdirilən ƏDV balans hesabatı tarixindən kənarda baş verən alışlara aiddir. Əvəzləşdirilən ƏDV alışlar üçün ödəniş edildikdən sonra satışdan daxil olan ƏDV-dən tutulur.

**Gəlirlər**

15 saylı MHBS, müştərilərlə bağlanmış müqavilələr üzrə yaranan gəlirləri hesablamaq üçün beş mərhələli bir model təqdim edir. Gəlirlər, 15 saylı MHBS-yə uyğun olaraq ASC-nin mal və xidmətlərin müştəriyə ötürülməsi hüququ üzrə ehtimalı əks etdirən məbləğdə tanınır. Müştərilərlə olan müqavilələrdən əldə edilən gəlirlər, ASC-nin müştəriyə vəd edilmiş mal və ya xidmətin ötürülməsi yolu ilə icra öhdəliyini yerinə yetirdikdə tanınır. Mal və ya xidmət, müştəri həmin mal və ya xidmətin nəzarəti hüququna malik olduğu zaman ötürülür. Gəlirlər ƏDV və hər hansı endirimlər üzrə göstərilir.

ASC müştəriyə vəd edilmiş mal və ya xidmətin müddət ərzində ötürülməsi, eyni zamanda müqavilə üzrə icra öhdəyini müddət ərzində yerinə yetirilməsi və gəlirin müddət ərində tanınması aşağıdakı meyarlardan biri yerinə yetirildiyi təqdirdə həyata keçirir:

- ASC-nin icra öhdəliyinin yerinə yetirilməsi ilə müştərinin faydalanması eyni zamanda baş verdikdə;
- ASC fəaliyyəti nəticəsində müştərinin nəzarəti altında olan hər hansı bir aktivi yaradır və ya təkmilləşdirir;
- ASC-nin fəaliyyəti ASC-yə alternativ istifadəsi olan bir aktiv yaratmır və bu günə qədər fəaliyyətinə görə ödəmə hüququna malikdir.

Müddət ərzində yerinə yetirilən hər bir icra öhdəliyi üçün gəlir həmin icra öhdəliyinin tam yerinə yetirilməsi istiqamətində irəliləyişin ölçülməsi yolu ilə tanınmalıdır.

**Digər gəlirlər**

Əsas fəaliyyət növləri olmayan əməliyyatlardan digər gəlirlərə daxil olunur. Digər gəlirlər hesablama metodu əsasında uçota alınır.

**Nizamnamə kapitalı.**

ASC-nin nizamnamə kapitalı qeydiyyatdan keçmiş kapildan ibarətdir.

Nizamnamə kapitalının həcmindəki dəyişikliklərin təsdiqlənməsi illik ümumi yığıncağın qərarı ilə həyata keçirilir.

**3. Əsas uçot prinsiplərinin xülasəsi (davamı)**

**Gələcək dövrün gəlirləri.**

Müştərilərdən alınan avanslar əvvəlcə öhdəlik kimi tanınacaq, lakin vaxt keçdikcə və ya ASC-nin adi fəaliyyəti nəticəsində aktiv olacağı gözlənilir. Müştərilərdən alınan avanslar əvvəlcə alınan əvəzin ədalətli dəyəri və onlarla əlaqəli əməliyyat xərcləri ilə tanınır və sonradan amortizasiya olunmuş maya dəyəri ilə ölçülür.

**Dividendlər.**

Dividendlər elan edildikləri dövrdə kapitalda əks etdirilir. Hesabat dövrünün başa çatmasından sonra, lakin maliyyə hesabatlarının imzalanmasından əvvəl elan edilmiş dividendlər haqqında məlumat "hesabat dövründən sonra baş vermiş hadisələr" Qeydində açıqlanır. Mənfəətdən dividendlər və digər ödənişlər ASC-nin yerli qanunvericiliyə uyğun hazırlanmış maliyyə hesabatlarına əsasən həyata keçirilir. Azərbaycan qanunvericiliyində cari ilin xalis mənfəəti bölüşdürmənin əsası kimi müəyyən edilir.

## 4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

ASC növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və passivlərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və passivlərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

**Əmlak, qurğu və avadanlıqların faydalı istifadə müddəti.**

Rəhbərlik, əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə təxmin edilən ədalətli dəyəri və müvafiq köhnəlmə və amortizasiya ayırmalarını müəyyən edir. Bu təxminlər, ASC-nin həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Əgər faydalı istifadə müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olarsa, o zaman rəhbərlik köhnəlmə ayırmasını artıracaq və ya ləğv edilmiş və ya satılmış texniki cəhətdən köhnəlmiş aktivləri siləcəkdir. Faydalı istifadə müddətinə hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıdakı şərtlərdən və ya təxminlərdən hər hansı dəyişərsə, bu köhnəlmə dərəcələrində dəyişiklilərin baş verməsinə səbəb ola bilər.

**Debitor borcları üzrə dəyərsizləşmə ehtiyatı.**

Debitor borcları üzrə dəyərsizləşmə ehtiyatı rəhbərliyin fərdi müştəri hesabları üzrə alınacaqların geri qaytarılma ehtimalını qiymətləndirməsinə əsaslanır. Müştərinin mühüm maliyyə çətinlikləri, müflis olması ehtimalı və ya ödəmələrində qeyri-davamlılıq alınacaqların potensial olaraq dəyərdən düşdüyünün göstəricisidir. Əsas müştərinin kredit ödəmə qabiliyyətində problem olduqda real fərqlər bu ehtimallardan fərqlənə bilər və ya real ödənilməmə ehtimallardan daha yüksək ola bilər.

Alınacaq məbləğ üzrə daha artıq məbləğ daxil olmayacağı ehtimalı olduqda debitor borcu yaradılmış ehtiyat hesabına silinir.

Ticari borcların qiymətdən düşmə üçün qiymətləndirilmiş gələcək hərəkəti aktivlərin müqavilə üzrə hərəkətinə və rəhbərliyin keçmişdə müddəti keçmiş borclarla qarşılaşma və onların bərpası mümkünlüyü təcrübəsinə istinadən ehtimal olunur. Keçmiş təcrübə keçmiş dövrə təsir etməyən müasir şərait elementlərinin təsirinin qiymətləndirilməsi və hazırda mövcud olmayan keçmiş dövrə aid elementlərin təsirinin ixtisar edilməsi vasitəsilə hazırkı müşahidəyə uyğunlaşdırılır.

## 4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

**Fasiləsiz fəaliyyət prinsipi.**

Rəhbərlik hazırkı maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən hazırlamışdır. Belə bir mülahizə irəli sürərkən rəhbərlik ASC-nin maliyyə vəziyyətini, mövcud planları, əməliyyatların gəlirliliyini və maliyyə resurslarından istifadəni nəzərə almış və son maliyyə böhranının ASC-nin gələcək əməliyyatlarına təsirini təhlil etmişdir.

**Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu.**

ASC öz fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 39 saylı MUBS-ə uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin, həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün fəal bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir.

**5. Yeni düzəliş edilmiş uçot standartları və onlara dair şərhlərin tətbiqi**

Cari ildə ASC 31 dekabr 2021-ci il illik hesabat dövrü üçün effektiv olan və öz əməliyyatlarına uyğun olan MHBS və MHBS-nın BMHŞK-si tərəfindən buraxılmış bütün tətbiq olunan yeni yenidən işlənmiş Standardları və Şərhləri qəbul etmişdir. Bu yeni və yenidən işlənmiş Standardlar və Şərhlər cari və ya əvvəlki illər üçün hesabatı verilmiş məbləğlərə təsir edən ASC-nin uçot siyasətində əhəmiyyətli dəyişikliklərlə nəticələnməmişdir.
Aşağıdakı Standardlar və Şərhlər 01 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan və ASC əhəmiyyətli dərəcədə təsir etməyən maliyyə hesabatları dövrlərinə ilk dəfə tətbiq edilir:

**3 saylı MHBS: "Biznesin tərifi"**

"Müəssisələrin birləşməsi" adlı 3 saylı MHBS-yə düzəliş izah edir ki, müəssisə hesab olunmaq üçün inteqrasiya edilmiş fəaliyyətlər və aktivlər dəstinə ən azından birlikdə məhsul yaratmaq qabiliyyətinə əhəmiyyətli töhfə verən giriş komponentlər və əhəmiyyətli proses daxil olmalıdır. Bundan əlavə, düzəliş bir müəssisənin məhsul yaratmaq üçün lazım olan bütün giriş komponentlərini və prosesləri əhatə etmədiyi halda belə mövcud ola biləcəyini izah edir. Bu düzəlişlərin Müəssənin maliyyə hesabatlarına təsiri olmamışdır, lakin Müəssə hər hansı müəssisələrin birləşməsinə daxil olarsa, gələcək dövrlərə təsir edə bilər.

**5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)**
**7 saylı MHBS, 9 saylı MHBS və 39 saylı MUBS-a düzəlişlər: Faiz dərəcəsi etalonu islahatı**

9 saylı "Maliyyə alətləri" adlı MHBS-yə və 39 saylı "Maliyyə alətləri: Tanınma və ölçülmə" adlı MUBS-a düzəlişlər faiz dərəcəsi etalonu islahatının birbaşa təsirinə məruz qalan bütün hedcinq münasibətlərinə tətbiq edilən bir sıra azadetmələri nəzərdə tutur. Hedcinq münasibətinə o zaman təsir göstərilir ki, islahat hedcinq maddəsinin və/və ya hedcinq alətinin etalona əsaslanan pul vəsaitlərinin hərəkətinin müddəti və/və ya məbləği barədə qeyri-müəyyənliklər yaratsın. Bu düzəlişlər Müəssənin maliyyə hesabatlarına təsir göstərmir, çünki Müəssənin faiz dərəcəsinin hedcinqi münasibətləri yoxdur.

**1 saylı MUBS və 8 saylı MUBS-a düzəlişlər "Əhəmiyyətlilik" anlayışının tərifi**

Düzəlişlər, "məlumatların buraxılması, təhrif edilməsi və ya gizlədilməsi halında, ümumi təyinatlı maliyyə hesabatlarının əsas istifadəçilərinin konkret hesabat verən müəssisə haqqında maliyyə məlumatlarını verən maliyyə hesabatları əsasında qəbul etdikləri qərarlara təsir göstərəcəyi əsası olaraq gözlənilə bilərsə, həmin məlumatlar əhəmiyyətli hesab olunur". Düzəlişlər əhəmiyyətliliyin məlumatın maliyyə hesabatları kontekstində fərdi olaraq və ya digər məlumatlarla birlikdə təbiətindən və ya miqyasından asılı olacağını aydınlaşdırır. Məlumatların təhrif edilməsi, əsas istifadəçilər tərəfindən verilən qərarlara təsir göstərəcəyi əsaslı olaraq gözlənilə bilərsə əhəmiyyətli hesab olunur.

**29 mart 2018-ci il tarixində buraxılmış Maliyyə Hesabatlarının Konseptual Əsasları**

Konseptual əsaslar standart deyildir və əhatə olunan konsepsiyaların heç biri hər hansı bir standartın konsepsiya və ya tələblərini ləğv etmir. Konseptual əsasların məqsədi BMUSŞ tərəfindən standartların hazırlanmasına və maliyyə hesabatlarını hazırlayanlara tətbiq olunan standart mövcud olmadığı təqdirdə uyğun mühasibat uçotu siyasətlərini hazırlamağa kömək etmək, eləcə də standartların başa düşülməsi və şərh edilməsində bütün tərəflərə kömək etməkdir. Bu mühasibat uçotu prinsiplərini Konseptual Əsaslara uyğun hazırlamış müəssisələrə təsir göstərəcək. Yenidən nəzərdən keçirilmiş Konseptual əsaslar özündə bəzi yeni konsepsiyaları cəmləşdirir, aktiv və öhdəliklər üçün yenilənmiş təriflər və tanınma meyarlarını təqdim edir və bəzi vacib anlayışlara aydınlıq gətirir. Bu düzəlişlərin Müəssənin edilmiş maliyyə hesabatlarına təsiri olmamışdır.

**5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi**

**1 saylı MUBS-a düzəlişlər – Öhdəliklərin cari və uzunmüddətli kimi təsnifləşdirilməsi**

2020-ci ilin yanvar ayında öhdəliklərin cari və uzunmüddətli kimi təsnifləşdirilməsi üzrə tələbləri müəyyən etmək üçün MUBS 1 saylı MUBS-un 69-76 bəndlərinə düzəlişlər dərc etmişdir. Düzəlişlər aşağıdakı məsələlərə aydınlıq gətirir:

- Hesablaşmanı təxirə salmaq hüququ nə deməkdir;
- Təxirə salmaq hüququ hesabat dövrünün sonunda mövcud olmalıdır;
- ASC-nin təxirə salmaq hüququndan istifadə edə bilməsi təsnifləşdirməyə təsir etmir;
- Yalnız çevrilən öhdəlikdəki əlaqədar törəmə aləti özü-özlüyündə kapital aləti olarsa, öhdəliyin şərtləri təsnifləşdirməyə təsir göstərmir.

Bu düzəlişlər 01 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və retrospektiv qaydada tətbiq edilməlidir. Hal-hazırda Müəssə düzəlişlərin onun cari təcrübəsinə təsirini və mövcud kredit müqavilələrinə yenidən nəzərdən keçirilməsinə ehtiyacın olub-olmamasını qiymətləndirir.

**Konseptual əsaslara istinad – 3 saylı MHBS-yə düzəlişlər**

2020-ci ilin may ayında MUBSŞ, "Müəssisələrin Birləşməsi" adlı 3 saylı MHBS-yə "Konseptual Əsaslara İstinad" adlı düzəliş qəbul etmişdir. Düzəlişlər 1989-cu ildə buraxılmış "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim olunması Prinsipləri"nə istinadı, tələbləri əhəmiyyətli dərəcədə dəyişdirmədən, 2018-ci ilin mart ayında buraxılmış "Maliyyə Hesabatlarının Konseptual Əsasları"na istinadla əvəz etmək məqsədini daşıyır.

Bundan əlavə, Şura, 37 saylı MHBS və ya 21 saylı BMHŞK "Tutumlar" əhatə dairəsində olan öhdəliklər və potensial öhdəliklər üçün (bunlar ayrı-ayrılıqda yerinə yetirilərsə) yaranan potensial 'gün 2' gəlir və ya zərərləri ilə bağlı problemdən qaçınmaq üçün 3 saylı MHBS-nin tanıma prinsipinə istisna əlavə etmişdir.

Eyni zamanda, Şura, "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Prinsipləri"nə istinadın əvəz edilməsindən təsirlənməyəcək potensial aktivlərə dair 3 saylı MHBS-dəki mövcud göstərişi aydınlaşdırmağa qərar vermişdir.

Düzəlişlər 01 yanvar 2023-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və gələcək dövrlərə tətbiq olunur. Bu düzəlişlərin Müəssənin maliyyə hesabatlarına təsir göstərməsi gözlənilmir.

## 6. Balans və əlaqəli tərəflərlə əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni ASC-nin nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

*(məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

## 7. Torpaq, tikili və avadanlıqlar

Əmlak, qurğu və avadanlıqlar qalıqları aşağıdakı kimidir:

| | Bina, tikili və qurğular | Nəqliyyat vasitələri | Maşın və avadanlıqlar | Kompüter və rabitə avadanlıqları | Digər əsas vəsaitlər | Kapitallaşma | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | **6.135.499** | **4.012.129** | **8.686.202** | **384.832** | - | - | **19.218.662** |
| Əlavələr | 1.632.036 | 463.029 | 3.348.098 | 123.510 | 360.077 | - | **5.926.750** |
| Köhnəlmə xərci | (815) | (671.277) | (1.158) | (51) | (36) | - | **(673.337)** |
| **31.12.2021-ci il tarixinə** | **7.766.720** | **3.803.881** | **12.033.142** | **508.291** | **360.041** | - | **24.472.075** |
| **İlkin dəyər** | **7.766.720** | **3.803.881** | **12.033.142** | **508.291** | **360.041** | - | **24.472.075** |
| Əlavələr | 205.960 | 771.855 | 1.803.337 | 51.341 | 8.585 | - | **2.841.078** |
| Köhnəlmə xərci | (3.649) | (420) | (1.628) | (56) | (75) | - | **(5.828)** |
| Təqdimedilmə | - | (327.000) | - | - | - | - | **(327.000)** |
| **31.12.2022-ci il tarixinə** | **7.969.031** | **4.248.316** | **13.834.851** | **559.576** | **368.551** | - | **26.980.325** |
| **İlkin dəyər** | **7.969.031** | **4.248.316** | **13.834.851** | **559.576** | **368.551** | - | **26.980.325** |
| Əlavələr | - | 1.321.386 | 5.783.954 | 16.274 | 95.808 | 61.939 | **7.279.361** |
| Köhnəlmə xərci | (557.832) | (1.160.567) | (3.249.420) | (142.444) | (84.648) | - | **(5.194.911)** |
| Təqdimedilmə | - | (160.000) | - | - | - | - | **(160.000)** |
| **31.12.2023-cü il tarixinə** | **7.411.199** | **4.249.135** | **16.369.385** | **433.406** | **379.711** | **61.939** | **28.904.775** |

## 8. Mallar

Malların siyahısı aşağıdakı kimidir:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Mallar | 19.995.008 | 21.150.831 |
| **Cəmi mallar** | **19.995.008** | **21.150.831** |

## 9. Hazır məhsul

Hazır məhsulların siyahısı aşağıdakı kimidir:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Hazır məhsul | 1.948.720 | 3.115.988 |
| **Cəmi hazır məhsullar** | **1.948.720** | **3.115.988** |

## 10. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri üzrə siyahı aşağıdakı kimidir:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Nağd pul vəsaitləri (kassa) | 374.375 | 377.361 |
| Bank hesablarındakı pul vəsaitləri | 135.079 | 455.411 |
| ƏDV depozit hesabı | - | 52.817 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **509.454** | **885.589** |

Banklarda olan pul vəsaitləri aşağıdakılardan ibarətdir:

| **Maliyyə institutu** | **Valyuta** | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|---|
| "ABB" ASC | AZN | 63.372 | 18.117 |
| "ABB" ASC | USD | 1 | 2.484 |
| "ABB" ASC | EUR | 5 | 26.217 |
| "ABB" ASC | RUB | 979 | 50.059 |
| "Accessbank" QSC | AZN | 5.675 | 3.123 |
| "Accessbank" QSC | EUR | 2 | 302 |
| "Accessbank" QSC | USD | - | 857 |
| "Bank Respublika" ASC | RUB | 618 | - |
| "Expressbank" ASC | AZN | 17.665 | 180.162 |
| "Expressbank" ASC | USD | 38.972 | 10.936 |
| "Expressbank" ASC | EUR | 310 | 1.785 |
| "Expressbank" ASC | RUB | 16 | 14 |
| "Rabitə Bank" ASC | AZN | 225 | 58.479 |
| "Rabitə Bank" ASC | EUR | 6.962 | - |
| "Rabitə Bank" ASC | USD | 109 | - |
| "Yapı Kredi" QSC | AZN | 106 | 530 |
| "Yapı Kredi" QSC | USD | 34 | 26 |
| "VTB BANK" ASC | AZN | - | 160 |
| "VTB BANK" ASC | RUB | - | 591 |
| "Muğanbank" ASC | AZN | 28 | 101.569 |
| **Banklarda olan cəmi pul vəsaitləri** | | **135.079** | **455.411** |

### 11. Verilmiş avanslar

Verilmiş avanslar üzrə siyahı aşağıdakı kimidir:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Verilmiş avanslar | 10.473.618 | 12.368.600 |
| **Cəmi verilmiş avanslar** | **10.473.618** | **12.368.600** |

### 12. Debitor borclar

Debitor borcları aşağıdakı kimidir:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | 22.425.826 | 14.399.039 |
| Gözlənilən kredit itkisi üzrə ehtiyyat | (2.242.582) | - |
| **Cəmi debitor borclar** | **20.183.244** | **14.399.039** |

## 13. Digər aktivlər

Digər cari aktivlərin qalıqları aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| ƏDV sub uçot | 92.465 | - |
| Əvəzləşdirilən əlavə dəyər vergisi | 473.375 | - |
| Digər qısamüddətli aktivlər | 102.041 | 624.155 |
| **Cəmi digər akitvlər** | **667.881** | **624.155** |

## 14. Ödənilmiş nominal (nizamnamə) kapital

ASC-nin iştirakçılarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilmişdir:

| | 31 dekabr 2023-cü il | | | 31 dekabr 2022-ci il | | |
|---|---|---|---|---|---|---|
| | **Səhm** | **%** | **Məbləğ** | **Səhm** | **%** | **Məbləğ** |
| Nəbiyev Mahayət Ənvər | - | - | - | 10.000 | 100 | 10.000 |
| Nəbiyev Elbrus Ənvər | 200.000 | 100 | 200.000 | - | - | - |
| **Cəmi səhm kapitalı** | **200.000** | **100** | **200.000** | **10.000** | **100** | **10.000** |

## 15. Digər kapital

Digər kapitalın siyahısı aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Nəbiyev Mahayət Ənvər oğlu | 860.968 | - |
| Nəbiyev Mahayət Ənvər oğlu | 42.489.189 | 42.306.986 |
| **Cəmi digər kapital** | **43.350.157** | **42.306.986** |

## 16. Kreditor borclar

Kreditor borcların siyahısı aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Malsatan və podratçılara kreditor borcları | 12.529.830 | 7.615.501 |
| **Cəmi kreditor borcları** | **12.529.830** | **7.615.501** |

## 17. Alınmış avanslar

Alınmış avanslar aşağıdakı kimidir:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Alınmış avanslar | 1.227.368 | 1.254.493 |
| **Cəmi alınmış avanslar** | **1.227.368** | **1.254.493** |

## 18. Vergi öhdəlikləri

Vergi öhdəlikləri aşağıdakı kimidir:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Qısamüddətli vergi öhdəlikləri | 2.110.736 | 171.874 |
| **Cəmi vergi öhdəlikləri** | **2.110.736** | **171.874** |

## 19. Digər öhdəliklər

Digər öhdəliklər aşağıdakı kimidir:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| İşci heyətinə qısamüddətli kreditor borclar | 151.882 | - |
| Nəbiyev Araz | 591.032 | - |
| Nəbiyev Mahayət | 82.576 | - |
| Gold Vine MMC | 6.044.460 | 5.682.506 |
| Baku Vood MMC | - | 25.426 |
| Meat Vorld Agro | - | 400.000 |
| **Cəmi digər öhdəliklər** | **6.869.950** | **6.107.932** |

## 20. Uzunmüddətli bank kreditləri

Uzunmüddətli bank kreditləri aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Uzunmüddətli bank kreditləri | 16.688.020 | 12.504.208 |
| **Cəmi uzunmüddətli bank kreditləri** | **16.688.020** | **12.504.208** |

Uzunmüddətli bank kreditlərinin izah aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| **Rezident banklar və digər təşkilatlardan götürülmüş borc vəsaitləri:** | | |
| "ABB" ASC | 9.640.053 | 9.539.139 |
| "Yapı Kredi" QSC | 599.808 | - |
| "Rabitə Bank" ASC | 6.361.274 | 1.598.951 |
| "Expressbank" ASC | - | 775.086 |
| "Bank Respublika" ASC | - | 591.032 |
| **Hesablanmış ödəniləcək faizlər** | 86.885 | - |
| **Cəmi borc vəsaitləri** | **16.688.020** | **12.504.208** |

## 21. Gəlirlər

Gəlirlərin siyahısı aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Malların təqdim edilməsindən gəlir | 54.447.782 | 31.663.974 |
| Əmlakın icarəsindən gəlir | - | 25.424 |
| Amortizasiya olunan əsas vəsaitin təqdim edilməsindən gəlir | - | 44.559 |
| Digər gəlirlər | - | 13.504 |
| **Cəmi gəlirlər** | **54.447.782** | **31.747.461** |

## 22. Sair əməliyyat gəliri

Maya dəyəri xərclərinin siyahısı aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| İcarə gəliri | 41.799 | - |
| Məzənnə fərqindən gəlir | 250.047 | - |
| Təqdimedilmə gəliri | 135.333 | - |
| Subsidiya gəliri | 468.646 | - |
| Digər | 20.645 | - |
| **Cəmi sair əməliyyat gəliri** | **916.470** | **-** |

## 23. Maya dəyəri xərcləri

Maya dəyəri xərclərinin siyahısı aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Malın dəyəri | (31.603.863) | (17.581.369) |
| Əmək haqqı və əlaqəli xərclər | (4.747.749) | - |
| Su sərfiyyatı xərci | (77.687) | - |
| Qaz sərfiyyatı xərci | (675.496) | - |
| Enerji sərfiyyatı xərci | (518.997) | - |
| Amortizasiya xərci | (5.194.911) | - |
| Digər istehsalat xərcləri | (876.333) | - |
| **Cəmi maya dəyəri xərcləri** | **(43.695.036)** | **(17.581.369)** |

## 24. Sair əməliyyat xərcləri

Maya dəyəri xərclərinin siyahısı aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Geri qaytarma nəticəsində gəlirin azaldılması | (358.355) | - |
| Məzənnə fərqindən zərər | (88.824) | - |
| Təqdimedilən əsas vəsaitlərin maya dəyəri | (160.000) | - |
| **Cəmi sair əməliyyat xərcləri** | **(607.179)** | **-** |

## 25. İnzibati və ümumi xərclər

İnzibati və ümumi xərclər xərclərinin siyahısı aşağıdakı kimidir:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Əmək haqqı və ona bərabər tutulan xərclər | - | (3.345.610) |
| Sosial sığorta haqları | - | (646.267) |
| İcarə haqqı | (6.759) | (21.000) |
| Ezamiyyə xərcləri | - | (8.919) |
| Enerji xərcləri | - | (450.825) |
| Qaz xərcləri | - | (934.022) |
| Yanacaq xərcləri | (1.294.204) | (1.457.358) |
| Su və kanalizasiya xərcləri | - | (36.705) |
| Rabitə xərcləri | (83.900) | (107.890) |
| Mühafizə xərcləri | - | (2.534) |
| Bank xidməti üzrə xərclər | (193.310) | (103.557) |
| Reklam xərcləri | (565.150) | (563.722) |
| Malların təqdim edilməsi ilə bağlı sair xərclər | (23.984) | (77.647) |
| Faiz xərcləri | (1.716.897) | (904.410) |
| Amortizasiya xərcləri | - | (332.828) |
| Təmir xərcləri | (941.738) | (611.556) |
| Nəqliyyat xərcləri | (527.954) | (372.042) |
| Ödənilmiş sığorta haqları | (89.347) | (106.441) |
| Yol vergisi xərci | (33.911) | - |
| Yemək xərci | (96.299) | - |
| Yararsız malların zərərsizləşdirilməsi | (240.630) | - |
| Digər xərclər | (967.326) | (1.426.375) |
| **Cəmi inzibati və ümumi xərclər** | **(6.781.409)** | **(11.509.708)** |

## 26. Mənfəət vergisi

ASC, vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hazırlayır və bu hesablamalar MHBS-dən fərqlənə bilər. Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olduğundan ASC müəyyən daimi vergi fərqlərinin təsirinə məruz qalır.

Təxir salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əksetdirir. 31 dekabr 2023-cü il tarixinə müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

**Mənfəət vergisi (davamı)**

**(a) Mənfəət vergisi xərcinin komponentləri:**

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (149.109) | (227.248) |
| **İl üzrə cəmi mənfəət vergisi xərci** | **(149.109)** | **(227.248)** |

**(b) Mənfəət vergisi xərci ilə mənfəət və ya zərərin qanunvericiliklə müəyyən edilmiş müvafiq vergi dərəcəsinə olan hasilinin üzləşdirilməsi**

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| **MHBS-yə uyğun vergidən əvvəlki mənfəət** | **3.885.670** | **1.136.241** |
| Qanunvericiliklə müəyyən edilmiş 20% dərəcə ilə hesablanmalı olan mənfəət vergisi xərci | (149.109) | (227.248) |
| **İl üzrə mənfəət vergisi xərci** | **(149.109)** | **(227.248)** |

**(c) Vergidən azadolma və güzəştlər.**

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| İnvestisiya təşviqinə əsasən mənfəətin 50% faizi | (784.700) | (1.136.241) |
| Kənd təsərüfatı ilə bağlı verilmiş subsidya üzrə azadolma | (468.646) | - |
| **İl üzrə vergidən azadolma və güzəştlərin cəmi** | **(1.253.346)** | **(1.136.241)** |

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| İnvestisiya təşviqinə əsasən mənfəətin 50% faizi (ASC-nin mənfəət bəyanaməsinə əsasən) | (745.390) | - |

**(d) ASC-nin mənfəət vergi bəyannaməsi və audit yoxlaması nəticəsində tapılmış mənfət vergisi arasında fərq.**

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| ASC-nin mənfəət bəyannaməsinə əsasən mənfəət vergisi | (149.109) | - |
| Audi yoxlamasına əsasən tapılmış mənfəət vergisi | (156.940) | - |
| **Gələcək hesabat dövrünün vergi aktivi** | **(7.831)** | - |

## 27. Maliyyə risklərinin idarə edilməsi

**Kredit riski və kredit risklərinin konsentrasiyası**

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 509.454 | 885.589 |
| Debitor borclar | 20.183.244 | 14.399.039 |
| **Cəmi maksimal kredit riski** | **20.692.698** | **15.284.628** |

## 28. Maliyyə risklərinin idarə edilməsi (davamı)

Qarşı tərəf borcunu müəyyən edilmiş ödəmə müddətində tam ödəyə bilmədikdə, ASC kredit riskinə məruz qalır. Adətən, da maliyyə aktivlərinin balans dəyəri ASC-nin məruz qaldığı kredit riskinin maksimum miqdarını əks etdirir. Potensial kredit riskinin azaldılması üçün aktiv və passivlərin əvəzləşdirilməsi imkanı böyük əhəmiyyət kəsb etmir. ASC-nn kredit riski üzrə konsentrasiyalara məruz qalan maliyyə alətləri əsasən pul və pul vəsaitlərinin ekvivalentləri, banklarda müddətli depozitlər və debitor borclarından ibarətdir.

ASC-nin məruz qaldığı kredit riskinin maksimum dərəcəsi maliyyə aktivlərinin balans dəyəri üzrə əks etdirilir və aşağıdakı cədvəldə aktivlərin kateqoriyalarına görə təsnifləşdirilir:

**Maliyyə riski amilləri**

Fəaliyyətin adi gedişində ASC alınan və satılan malların dəyişkən qiymətləri, digər xammalların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri nəticəsində yaranan bazar riskləri ilə üzləşir. Qiymətlərdəki dəyişikliklərdən asılı olaraq bazar qiymətlərindəki bu cür dəyişikliklər ASC-nin maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. ASC-nin ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və ASC-nin maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün ASC əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. Maliyyə riskinin vacib komponentləri likvidlik riski, xarici valyuta riski, faiz dərəcəsi riski və kredit riskidir.

**Maliyyə risklərinin idarə edilməsi (davamı)**

**Valyuta riski**

Xarici valyuta riski, maliyyə alətlərinin dəyərinin xarici valyuta məzənnələrindəki dəyişikliklərə görə dəyişməsi riskidir. Xarici valyuta ilə ifadə edilmiş aktivlər (banklardakı depozitlər və debitor borcları) və passivlər (kredit borcları və digər passivlər) xarici valyuta riskini yaradır. Xarici valyuta riskini idarə etmək üçün. ASC hər hansı rəsmi prosedurlara malik olmasa da, rəhbərlik fəaliyyət göstərdiyi sektorda baş verən tendensiyalardan kifayət qədər məlumatlıdır və bu cür risklərin azaldılması üçün bəzi tədbirlər görmüşdür.

ASC-nin xarici valyuta məzənnə dəyişikliyi riskinə məruz qalma vəziyyəti 31 dekabr 2023-cü il tarixinə aşağıda göstərilmişdir:

| Maliyyə aktivləri | AZN | ABŞ dolları | Avro | Rusiya rublu | 31.12.2023 |
|---|---|---|---|---|---|
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 461.446 | 39.116 | 7.279 | 1.613 | 509.454 |
| Debitor borclar | 19.122.012 | 1.059.922 | 1.078 | 232 | 20.183.244 |
| **Cəmi maliyyə aktivləri** | **19.583.458** | **1.099.038** | **8.357** | **1.845** | **20.692.698** |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Kreditor borclar | 7.634.729 | 2.520.904 | 1.729.594 | 644.603 | 12.529.830 |
| **Cəmi maliyyə öhdəlikləri** | **7.634.729** | **2.520.904** | **1.729.594** | **644.603** | **12.529.830** |
| **Açıq balans vəziyyəti** | **11.948.729** | **(1.421.866)** | **(1.721.237)** | **(642.758)** | **10.363.651** |

**Likvidlik riski**

Likvidlik riski aktiv və passivlərin ödəmə müddətlərinin uzlaşmadığı hallarda ortaya çıxır. Likvidliyin idarə edilməsinə ASC-nin yanaşması həm adi, həm də qeyri-adi şəraitdə ASC-nin nüfuzuna qəbul edilməyən zərər və ya risk zərəri vurmamaqla, öhdəliklərin müddəti başa çatdıqda onların likvidliyini daim təmin etməkdən ibarətdir. Rəhbərlik, 31 dekabr 2023-cü il tarixlərində ASC-nin cari ödəmə strukturunun hər hansı bir əhəmiyyətli likvidlik riskinə məruz qalmadığını hesab edir.

Aşağıdakı cədvəldə ASC-nin maliyyə öhdəlikləri ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir. Diskontlaşmanın təsiri əhəmiyyətli olmadığı üçün 1 il ərzində ödənilməli qalıqlar onların balans dəyərinə bərabərdir.

31 dekabr 2023-cü il tarixinə maliyyə alətlərinin ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| Maliyyə aktivləri | 1 ayadək | 1 aydan 6 ayadək | 6 aydan 1 ilədək | 31.12.2023 |
|---|---|---|---|---|
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 509.454 | - | - | 509.454 |
| Debitor borclar | - | - | 20.183.244 | 20.183.244 |
| **Cəmi maliyyə aktivləri** | **509.454** | **-** | **20.183.244** | **20.692.698** |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Kreditor borclar | - | 12.529.830 | - | **12.529.830** |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **12.529.830** | **-** | **12.529.830** |
| **Xalis likvidlik çatışmazlığı** | **509.454** | **(12.529.830)** | **20.183.244** | **8.162.868** |
| **Yığılmış likvidlik çatışmazlığı** | **509.454** | **(12.020.376)** | **8.162.868** | **-** |

## 29. Hesabat dövründən sonrakı hadisələr

Hesabat tarixindən sonra heç bir əhəmiyyətli hadisə baş verməmişdir.